# Avropa Gənclər Fondu

## Gənclərin və gənclər təşkilatlarının dəstəklənməsi



AGF insan hüquqlarına və əsas azadlıqlara hörmət ruhunda Avropa və dünya gəncləri arasında sülhü, anlaşmanı və əməkdaşlığı təşviq edən Avropa fəaliyyətlərinə maliyyə dəstəyi verməklə gənclərin əməkdaşlığını dəstəkləyir.

Youth – Jeunesse

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE




## AVROPA ŞURASI VƏ GƏNCLƏR

Avropa Şurasının məqsədi bütün Avropa qitəsində insan hüquqları, demokratiya və qanunun aliliyini dəstəkləməkdir. 1949-cu ildə İkinci Dünya Müharibəsinin küllərindən yaranmış, Avropanın ən qədim siyasi təşkilatı olan Avropa Şurasının hal-hazırda 46 üzv dövləti var.

## GƏNCLƏR SEKTORUNUN MİSSİYASI

Gənclər sektorunun missiyası "**bütün Avropada gənclərə Avropa Şurasının əsas dəyərlərini fəal şəkildə dəstəkləmək, müdafiə etmək, təşviq etmək və onlardan faydalanmaq üçün imkan yaratmaqdır.**"

AŞ, bu missiyanı gənclər siyasəti sahəsində hökumətlərarası əməkdaşlıq, insan hüquqları və demokratiya ilə bağlı təlim və təhsil proqramları, kampaniya və əməkdaşlıq layihələri, tədqiqatların aparılması və gənclər təşkilatlarının layihələrinə dəstək vasitəsilə həyata keçirir.

### GƏNCLƏR SEKTORUNUN PRİORİTETLƏRİ

- **plüralist demokratiyanın canlandırılması,** demokratik vətəndaşlığın, iştirakçı siyasətin təşviqi, iştirak qarşısındakı əngəllərin aradan qaldırılması;
- **gənclərin hüquqlara çıxışı,** Avropa Şurasının bu sahədəki standartlarının tətbiq edilməsinə dəstək, **insan hüquqları üzrə təhsilin təşviqi;**
- **dinc və inklüziv cəmiyyətlərdə birlikdə yaşama,** ayrıseçkiliyə, zorakılığa və təcridə qarşı mübarizə aparma, və Avropada qlobal həmrəyliyi, birliyi, sülhü, müxtəlifliyi, mədəniyyətlərarası və nəsillərarası dialoqu və ekoloji davamlılığı təşviq etmə;
- **gənclərlə iş,** gənclərlə işin gücləndirilməsi, tanınması və inkişaf etdirilməsi, onun keyfiyyətinin artırılması, gənclərlə işin əlçatanlığının və cəlbediciliyinin genişləndirilməsi

*(Gənclər sektoru strategiyası 2030)*

Avropa Şurasının gənclər sektorunda gənclər təşkilatlarının nümayəndələri hökumət nümayəndələri ilə birlikdə bərabərhüquqlu tərəfdaşlar olaraq gənclərlə bağlı prioritetlər, proqramlar və siyasətlər haqqında qərarlar qəbul edirlər.




## AVROPA GƏNCLƏR FONDU

AGF Avropa Şurasına üzv dövlətlərin və Avropa Mədəniyyət Konvensiyasına tərəf olan dövlətlərin gənclərinin iştirakı ilə gənclər təşkilatlarının **gənclər layihələrinə maliyyə və təhsil dəstəyi verir.**

Avropa Gənclər Fondu (AGF) Avropa Şurası tərəfindən 1972- ci ildə qurulmuş fonddur.

**AGF-nin əsas prinsipi:**
**Gənclər TƏRƏFİNDƏN, gənclərlə BİRLİKDƏ və gənclər ÜÇÜN**

## AGF HAQQINDA QISA MƏLUMAT

- Avropada gənclərin fəaliyyətlərini, gənclərlə işi və gənclər təşkilatlarını dəstəkləyən fond;
- Təşkilatın dəyər və prioritetlərini təşviq etmək üçün Avropa Şurasının gənclər sektorunun vasitəsi;
- Vətəndaş cəmiyyətini gücləndirmək məqsədilə gənclər sahəsində fəaliyyət göstərən yerli, milli və beynəlxalq qeyri-hökumət təşkilatları və şəbəkələri üçün tərəfdaş.

### HƏR İL

- AGF gənclərin təxminən 200 layihəsini dəstəkləyir;
- AGF tərəfindən maliyyələşdirilən layihələr təxminən 15000 gənci əhatə edir;
- AGF gənclər sahəsində fəaliyyət göstərən QHT-lərə təxminən 3,5 milyon avro qrant verir.

**AGF Fransanın Strasburq şəhərində yerləşir** və ofisi Avropa Gənclər Mərkəzindədir. AGF Demokratiya Direktorluğunun tərkibindəki Gənclər Departamentinin bir hissəsidir. AGF-nin işçi dilləri: ingilis və fransız dilləridir.




## AGF NƏYİ DƏSTƏKLƏYİR?

- Gənclər arasında sülh və əməkdaşlığın möhkəmləndirilməsinə, şəbəkələşmənin, mübadilələrin və qarşılıqlı dəstəyin təşviqinə yönəlmiş fəaliyyətlər;
- Gənclərin Avropa Şurasının gənclər sektorunun dəyərlərinə, prinsiplərinə və prioritetlərinə uyğun gələn layihələri;
- Müxtəlif fəaliyyətlər, o cümlədən maarifləndirmə kampaniyaları, bacarıqların artırılması fəaliyyətləri, tədqiqatlar, onlayn alətlər və təhsil və ya maarifləndirici materiallar.

AGF aşağıdakı layihələri dəstəkləyir:

- ilk növbədə 15-30 yaşlı gənclərin cəlb edildiyi layihələr;
- gənclərin ehtiyaclarına və gözləntilərinə əsaslanan layihələr;
- Avropa aspekti olan layihələr;
- qeyri-formal təhsil yanaşması olan layihələr;
- gender bərabərliyini və marginallaşdırılmış qrupları nəzərə alan layihələr.

## AGF NƏYİ DƏSTƏKLƏMİR?

Kommersiya layihələri, hissədarların iclasları, humanitar yardım, idman tədbirləri, tikinti işləri, turizm və ya təqaüdlər kimi fəaliyyətlər.

## AGF QRANTLARI ÜÇÜN KİMLƏR MÜRACİƏT EDƏ BİLƏR?

Avropa Şurasına üzv dövlətlərin və Avropa Mədəniyyət Konvensiyasına tərəf olan dövlətlərin gənclər sahəsində fəaliyyət göstərən QHT-ləri:

- milli və ya yerli QHT-lər;
- ən azı yeddi ölkədə gənclər sahəsində fəaliyyət göstərən beynəlxalq QHT-lər;
- ən azı yeddi ölkədən gənclər sahəsində fəaliyyət göstərən QHT-lərin beynəlxalq şəbəkələri;
- 4-6 ölkədən gənclər sahəsində fəaliyyət göstərən QHT-lərin regional şəbəkələri.

Müraciət edən təşkilalara qoyulan əsas tələblər:

- **qeyri-kommersiya və qeyri-hökumət təşkilatı olmalı**;
- Nizamnaməyə malik olmalı;
- Rəhbər və hədəf kütləsi 15-30 yaşlı gənclər olmalı;
- Fəaliyyətləri Avropa Şurasının dəyərləri və prinsiplərinə uyğun olmalı.




## AGF QRANTLARI

AGF dörd növ qrant verir:

- gənclərin qarşılaşdığı problemlərə və yerli səviyyədə onların ehtiyaclarına cavab verən yerli və ya milli layihələrə (pilot fəaliyyətlər) verilən qrantlar;
- beynəlxalq fəaliyyətlərə verilən qrantlar. Bunlar Avropanın əhəmiyyətini aydın şəkildə başa düşən gənclərin və ya gənc liderlərin görüşləridir;
- gənclər sahəsində fəaliyyət göstərən beynəlxalq QHT-lərə və şəbəkələrə bir il müddətində onların illik fəaliyyət planlarını (ardıcıl və bir-biri ilə əlaqəli fəaliyyətlər toplusu) dəstəkləmək üçün verilən qrantlar;
- gənclər sahəsində fəaliyyət göstərən beynəlxalq QHT-lərə və şəbəkələrə onların ümumi inzibati xərclərini ödəmək üçün verilən struktur qrantlar.

## AGF TƏHSİLƏ DƏSTƏYİ

AGF aşağıdakılarI təmin edir:

- AGF-yə təqdim etdikləri layihə təkliflərini aydınlaşdırmaq və təkmilləşdirmək üçün gənclər sahəsində fəaliyyət göstərən QHT-lərə tövsiyələr;
- layihələrinin keyfiyyətini gücləndirmək məqsədilə gənclər sahəsində fəaliyyət göstərən QHT-lərə maarifləndirmə və bacarıqların artırılmasında dəstək;
- **yeniliklər barəsində istifadəçilərə və tərəfdaşlara informasiya vermək üçün məlumat sessiyaları;**
- gənclərin layihələrinin keyfiyyətini artırmaq üçün vasitələr.

## AGF QRANTLARINA MÜRACİƏT - MƏRHƏLƏLƏR

1. AGF-də qeydiyyatdan keçmə: AGF-in onlayn sistemində (fej.coe.int) qeydiyyat istəyinin göndərilməsi.
2. **Qrant ərizəsinin müəyyən tarixlərə kimi onlayn göndərilməsi**.
3. Göndərilmiş ərizənin dəyərləndirilməsi. Proses zamanı təklifini aydınlaşdırmaq üçün ərizə göndərən QHT ilə əlaqə yaradıla bilər.
4. Ərizə haqqında gənclər sahəsində fəaliyyət göstərən səkkiz QHT və səkkiz hökumət nümayəndəsi tərəfindən təşkil olunmuş gənclər sektorunun birgə idarə olunan qanuni orqanı olan Gənclərlə iş üzrə Proqram Komitəsinin qərarı.

## AVROPA GƏNCLƏR FONDU

Council of Europe
30, rue Pierre de Coubertin
F-67000 Strasbourg, France
+33 3 88 41 20 19
eyf@coe.int
http://eyf.coe.int
www.coe.int/en/web/youth/youth-strategy-2030

bizi izlə

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

EYF european youth foundation fonds européen pour la jeunesse

Youth – Jeunesse

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE